# PEDAGOGICAL, PSYCHOLOGICAL, AND METHODOLOGICAL FOUNDATIONS OF PREPARING PRESCHOOL CHILDREN FOR SCHOOL

**Gunel Shadlinskaya**

Teacher of the Faculty of Humanities of the Guba branch
of the Azerbaijan State Pedagogical University
E-mail: arzuqizi@inbox.ru
https// orcid.org/0009-0001-7062-3719

**Abstract.** In the article, preschool education is presented as an important area of state policy. It is noted that the basic knowledge and skills of the future generation are laid at this level of education. In this regard, the importance of preparing pre-school children for school in physical, intellectual, aesthetic and creative, socio-emotional areas is explained and the training results are predicted. The organization of training and educational work, conducting exercises in the preparatory groups organized in general education schools requires special competence and professionalism of primary school teachers. The pedagogical process conducted here is considered the first level of education. It is recommended to build training and educational work on preparation for school on pedagogical, psychological and methodical bases.
**Keywords:** preschool age period, development areas, school preparation, aesthetic and creative development, social-emotional, physical development.

**DOI:** 10.30546/2709-2488.2.2024.091.
**To cite this article:** Shadlinskaya G. (2024). Pedagogical, psychological, and methodological foundations of preparing preschool children for school. *Journal of Preschool and Primary Education*, Vol. 247, Issue II, pp. 91-102.
**Article history:** received – 17.04.2024; accepted – 27.05.2024.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN MƏKTƏBƏ HAZIRLANMASININ PEDAQOJİ, PSİXOLOJİ VƏ METODİK ƏSASLARI

**Günel Şadlinskaya**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Quba filialının Humanitar elmlər kafedrasının müəllimi
E-mail: arzuqizi@inbox.ru
https//orcid.org/0009-0001-7062-3719

**Annotasiya.** Məqalədə məktəbəqədər təhsil dövlət siyasətinin mühüm bir sahəsi kimi təqdim olunur. Qeyd edilir ki, gələcək nəslin təməl bilik və bacarıqları təhsilin bu pilləsində qoyulur. Bu cəhətdən məktəbəqədər yaşlı uşaqların məktəbə hazırlanması işinin fiziki, intellektual, estetik və yaradıcı, sosial-emosional sahələr üzrə aparılmasının əhəmiyyəti açıqlanır və təlim nəticələrinin proqnozu verilir. Ümumtəhsil məktəblərində təşkil olunan məktəbəhazırlıq qruplarında təlim və tərbiyə işlərinin təşkili, məşğələlərin keçirilməsi ibtidai sinif müəllimlərinin xüsusi səriştəlilik və peşəkarlığını tələb edir. Burada aparılan pedaqoji proses təhsilin ilk səviyyəsi hesab edilir. Məktəbə hazırlıq üzrə aparılan təlim və tərbiyə işlərinin pedaqoji, psixoloji və metodik əsaslar üzərində qurulması tövsiyə olunur.

**Açar sözlər:** məktəbəqədər yaş dövrü, inkişaf sahələri, məktəbə hazırlıq, estetik və yaradıcı inkişaf, sosial-emosional, fiziki inkişaf.

**DOI:** 10.30546/2709-2488.2.2024.091.
**Məqaləyə istinad:** Şadlinskaya G. (2024). Məktəbəqədər yaşlı uşaqların məktəbə hazırlanmasının pedaqoji, psixoloji və metodik əsasları. «*Məktəbəqədər və ibtidai təhsil*», № 2 (247), səh. 91-102.
**Məqalə tarixçəsi:** göndərilib – 17.04.2024; qəbul edilib – 27.05.2024.

## Giriş / Introduction

Cəmiyyətin tərəqqisi elm və mədəniyyətin, insanların intellektual potensialının formalaşması ilə təmin edilir. Bu tələb uşaqların təlim-tərbiyəsi məsələlərini diqqət mərkəzində saxlamaqla yanaşı, ölkədə təhsil sisteminin müasirləşdirilməsi, təhsilin məzununun beynəlxalq və ölkə miqyaslı əmək və təhsil bazarında rəqabətə davamlılığını gündəmə gətirir. Yeni nəslin sağlam, cəmiyyətə faydalı, layiqli vətəndaşlar kimi formalaşması mürəkkəb və çox vaxt sərf olunan prosesdir. Buna görə də hər bir dövlət öz inkişafını sürətləndirmək üçün təhsilin keyfiyyətinin yüksəlməsinə xidmət edən islahatlar həyata keçirir. Azərbaycanda da uşaqların təlim-tərbiyəsi dövlətin xüsusi diqqəti və qayğısı ilə əhatə olunub. Uşaqların məktəbəqədər təhsil və məktəbə hazırlıq yaş mərhələsində təlim-tərbiyəsinin təşkili aktual mövzudur. Məktəbəqədər yaşlı uşaqların məktəbə hazırlanması prosesi ümumi təhsil məktəblərində təhsilin keyfiyyətinin yüksəldilməsinə təsir göstərən əsas amillərdən biridir.

Gənc nəsli elmi biliklərin öyrənilməsinə yönəltmək, vətənpərvərlik ruhunda, mənəvi zənginlik və əxlaqi saflıq duyğuları ilə tərbiyə etmək, onları bir şəxsiyyət kimi formalaşdırmaq məqsədlərinin reallaşdırılması üçün həyata keçirilən tədbirlər təhsil haqqında dövlət sənədlərində əksini tapır. "Məktəbəqədər təhsil müəssisələrinin inşası, onların inkişafı və məktəbəhazırlıq qruplarının təşkili" gələcəyə istiqamətlənmiş planlardır. Bu planların uğurla həyata keçirilməsində, uşaqların fiziki sağlamlığının və hərtərəfli inkişafının təmin olunmasında, o cümlədən milli genefondun qorunmasında Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir.

Təhsil dövlət siyasətinin mühüm bir sahəsidir. Bu səbəbdən məktəbə hazırlıqla bağlı tədbirlər planı təhsil haqqında bir sıra dövlət normativ-hüquqi sənədlərdə əks olunmuş və mərhələlərlə tətbiq olunmaqdadır. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"( 2013) təhsilin inkişafı üçün geniş perspektivlər açmış, məktəbəqədər təhsilin məzmununun yeniləşdirilməsi və modernləşdirilməsi, həmçinin məktəbəhazırlıq qruplarında əlverişli imkan və şəraitin yaradılması xüsusi olaraq göstərilmişdir. Bu mühüm dövlət sənədində qeyd olunur: "Təməl bacarıqlar uşaqlıq dövrünün ilk illərindən əldə edildiyinə görə uşaqların zehninin erkən yaş dövründən inkişaf etdirilməsi vacibdir. Bu səbəbdən məktəbəqədər təhsilin inkişafı dövlət siyasətində əhəmiyyətli yer tutur" [Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası., 2013].

Gələcək nəslin təməl bilik və bacarıqları təhsilin bu pilləsində qoyulduğundan məktəbəhazırlıq qruplarında təhsilin məzmununun yeniləşdirilməsi, təkmilləşdirilməsi və yeni kurikulumların hazırlanması Təhsilin inkişafı üzrə Dövlət Strate-

giyası əsasında hazırlanmış Fəaliyyət planının 3.1.3. bəndində - "birillik icbari məktəbəhazırlıq təhsilinin təmin olunması üzrə icra mexanizminin hazırlanması və tətbiqi" və 3.1.4. bəndində - "erkən yaşlı uşaqların məktəbəqədər təhsillə əhatəsinin 90 faiz səviyyəsinə çatdırılmasını nəzərdə tutan məktəbəqədər təhsilin inkişafı üzrə dövlət proqramının hazırlanması" əks olunmuşdur və tətbiq olunmaqdadır. "Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nun 8.4-cü bəndində "məktəbəhazırlıq beş yaşlı uşaqlar üçün zəruridir" deyə vurğulanır [Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu., 2009].

## Əsas hissə / Main part

Uşaqların məktəbə hazırlanması, bütövlükdə, pedaqoji prosesdir və burada aparılan bütün işlər pedaqoji əsaslar üzərində qurulmalıdır. Uşaqların ilk sistemli, planlı, pedaqoji əsaslar üzərində mükəmməl qurulan tərbiyə və təhsil işi məhz məktəbəqədər təhsil müəssisələrindən başlayır. Burada səriştəli müəllim və tərbiyəçilər uşaqların tərbiyəsinə böyük qayğı və məhəbbətlə yanaşır, onları gələcəyin böyük vətəndaşları kimi yetişdirir. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda da məktəbəqədər təhsilin qarşısında çox ciddi vəzifələr qoyulur və göstərilir ki, "məktəbəqədər təhsil təhsilin ilk pilləsi olmaqla ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir.... beş yaşlı uşaqlar üçün məktəbə hazırlıq zəruridir" [Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu., 2009].

Məktəbəhazırlığın əsas məqsədi beş yaşlı uşaqların tələb və imkanlarını nəzərə almaqla onların məktəbəhazırlıq mərhələsində ümumi inkişafı, tərbiyəsi və təhsili prosesini təşkil etmək, uşaqlarda oxumaq həvəsinin, onların məktəbə müsbət emosional münasibətinin, motivasiyasının düzgün istiqamətləndirilməsi, uşaqların məktəbə müvəffəqiyyətlə adaptasiya olunmasıdır. Bütün bunlara nail olmaq müəllimdən yüksək pedaqoji hazırlıq tələb edir.

Bu gün fəaliyyət göstərən məktəbə hazırlıq qrupları ümumi təhsilin səviyyəsinin yüksəldilməsində xüsusi əhəmiyyət kəsb edir. Çünki ümumtəhsil məktəbinin təlim-tərbiyə keyfiyyəti bir çox cəhətdən onun ilk pilləsində təməl bilik və bacarıqların uşaqlar tərəfindən yaxşı mənimsənilməsindən, onların fiziki və mənəvi sağlamlığından, intellektual potensiallarının yüksəldilməsi imkanlarından çox asılıdır.

"Məktəbə hazırlığın təşkili qaydalari"nda qeyd olunur: "Məktəb təliminə hazırlanan uşaqların psixoloji və psixofizioloji xüsusiyyətlərinin öyrənilməsi

məqsədi xüsusi olaraq qarşıya qoyulur. "Məktəbəqədər yaşlı uşaqların təhsil və tərbiyəsi xüsusiyyətləri və gələcək birinci sinif şagirdlərinin fərdi-psixoloji keyfiyyətlərinin aşkara çıxarılması" və "uşaqların inkişafının izlənməsi üçün müşahidə gündəlikləri aparılmalı, istedadlı uşaqların aşkara çıxarılması, onların imkanlarının inkişaf etdirilməsi, hər bir uşağın fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi" ["Məktəbə hazırlığın təşkili qaydalari"., 2010].

Keyfiyyətli təhsilə yiyələnməyin yollarından başlıcası uşaqların məktəb mühitinə və elmi bilikləri mənimsəmə prosesinə nail olmaqdır. Bunun üçün qarşıda duran vəzifələri bilmək və bu vəzifələrin yerinə yetirilməsinə yönələn planlaşdırma aparmaq lazımdır. Məktəbə hazırlıq mərhələsinin ***əsas vəzifələri*** beş yaşlı uşaqların inkişafı, tərbiyəsi və təhsili proseslərini təşkil etməkdir. Bu zaman uşaqların maraq dairələrinin, tələb və imkanlarının nəzərə alınması diqqət mərkəzinə çəkilməlidir. "Uşaqların məktəbə hazırlıq məşğələləri planlaşdırılarkən, əsasən, bir sıra məqsədlər nəzərdə tutulur. Uşaqların:

- ✓ diaqnostikası: potensial qabiliyyətlərinin müəyyənləşməsi, o cümlədən istedadlı uşaqların, həmçinin qavrama qabiliyyəti zəif olan uşaqların aşkarlanması, onlarla məşğələlərin istiqamətinin müəyyənləşdirilməsi, təşkili və s. [Əsədova İ., 2006];
- ✓ inkişaf mərhələləri və maraq dairələri arasında əlaqələrin düzgün qurulması;
- ✓ məktəbə müvəffəqiyyətlə adaptasiya olunması, məktəbə, müəllimə, digər uşaqlara müsbət emosional münasibətinin inkişaf etdirilməsi;
- ✓ şəxsi-sosial xüsusiyyətlərinin formalaşdırılması;
- ✓ davranış, rəftar aspektlərinin, ünsiyyət qurmaq bacarıqlarının formalaşdırılması;
- ✓ təlimə hazırlıq məqsədli oxumaq və yazmaq həvəsinin təməlinin qoyulması, hesablama, rəqəmsal bacarıqlarının və öyrənmə həvəsinin yaradılması, həyati bacarıqlarının təkmilləşdirilməsi və s.

Məktəbə hazırlıq mərhələsində sadalanan hazırlığa nail olmaq uşaqların pedaqoji, psixoloji, fizioloji, intellektual, sosial inkişafı və tərbiyəsi məsələlərini əhatə edir. Məlumdur ki, müəyyən səbəblərdən uşaqların hamısı məktəbəqədər təhsilə cəlb olunmurlar. Ona görə də 5 yaşlı uşaqların məktəbəhazırlıq siniflərinə cəlb olunması əsas zəruri tədbirlərdən biridir. Məktəbəqədər təhsillə əhatə olunmayan uşaqlar üçün qısamüddətli təlim qruplarının məzmunu valideynlərin sorğu və tələblərini təmin etməlidir. Qısamüddətli təlim qruplarında təlimin məqsədi məktəbəqədər təhsil müəssisələrinə getməyən uşaqlar üçün məktəbə daxil olduqda bərabər başlanğıc imkanlarının təmin edilməsi, onların məktəbə psixoloji hazırlığının formalaşdırılmasıdır [Cəfərova L., 2022]. Məktəbəqədər yaşlı uşaqların məktəbə hazırlıq mərhələsində məşğələlərin təşkili zamanı inkişaf sahələrinin nəzərə alınması zəruridir:

***Fiziki hazırlıq.*** Məktəb uşağın həyat tərzində yeni mərhələ olduğu üçün gün rejiminin dəyişməsi, məktəb qaydalarına uyğunlaşma, tədris əməyinə hazırlıq məqsədli təlim məşğələləri və bu məşğələ saatlarının cədvəl çərçivəsində aparılması, müəyyən tapşırıqların yerinə yetirilməsi, onlar üçün yeni olan qaydalara riayət edilməsi xeyli gərginlik və fiziki dözümlülük tələb edir. Ona görə də fiziki hazırlıq uşağın məktəbə daxil olması ərəfəsində mühüm şərtlərdən biridir. Uşağın məktəb təliminə hazırlığı zamanı onun fiziki inkişafı və gigiyenik qaydalarının gözlənilməsi xüsusilə nəzərdə tutulur. Fiziki hazırlıq sağlamlığın yaxşı vəziyyətdə olması, görmə, eşitmə, əzələ – toxuma orqanlarının normal fəaliyyəti, dərs müddətində dözümlülük və iradi keyfiyyətlərin inkişafı deməkdir.

***Fiziki inkişaf.*** Bu, məktəbə hazırlıq mərhələsində uşaq orqanizminin morfofunksional yetişkənliyini, bədən hissələrinin öz funksiyasını yerinə yetirmək qabiliyyətini və s. məsələləri əhatə edir. Uşaqların hərəki fəaliyyətlərinin koordinasiyası, fiziki bacarıqlarının inkişafı motorika, sinir, əzələ, dayaq-hərəkət və görmə, eşitmə, hissetmə kimi fəaliyyətlərin yaranmasının və mövcud fəaliyyətlərin təkmilləşməsinin əsasını təşkil edir. Fiziki inkişafın təmin olunması didaktik xarakterli, hərəkətli oyunlarla mümkündür.

Ümumtəhsil məktəbinin və məktəbəqədər təhsil müəssisəsinin məktəbə hazırlıq qruplarında 5-6 yaşlı uşaqların bədən tərbiyəsi və fiziki cəhətdən hazırlığı əsasən 4 istiqamətdə aparılır:

- fiziki sağlamlıq haqqında biliklərlə maarifləndirilməsi;
- bədən tərbiyəsi məşqləri ilə əzələlərin, fiziki hərəkətliliyin inkişaf etdirilməsi;
- bədən tərbiyəsi, idman məşqlərinə hazırlığı, fiziki təmrinlərə maraq yaradılması;
- fiziki mədəniyyətin aşılanması.

Fiziki hazırlığa xidmət edən məşğələlərdə göstərilən hər bir hərəkət və davranışın mahiyyəti, məqsədi və icra vəziyyəti və tərzi 5 yaşlılar üçün tam aydın, anlaşıqlı olmalı və onlar bunun tam faydalılığını dərindən dərk etməlidirlər. Məktəbə hazırlıq qruplarında uşaqlara verilən hər hansı bir hərəki təmrin və ya tapşırığın yerinə yetirilməsi təkcə tərbiyəçinin deyil, həm də hər bir uşağın arzu və istəyinə, marağına uyğun olmalıdır. Uşaqlarla aparılan fiziki tərbiyənin əsas məqsədlərindən biri də uşaqların sağlamlığı, çevikliyi və güclü olmasına nail olmaqdır. Pedaqoji təcrübələrdən məlum olur ki, uşaqların fiziki hazırlığı yüksək olduqda onların təlim fəaliyyəti də yaxşı olur.

Uşaqların fiziki tərbiyəsi əsas etibarilə kollektiv və ya qrup formada tətbiq edilir. Qeyd edə bilərik ki, idman məşğələləri uşaqlarda həm də xarakterin formalaşmasını təmin edən aşağıdakı mənəvi-əxlaqi keyfiyyətlər formnalaşdırır: kollektivçilik, birlik, dostluq və yoldaşlıq, əməkdaşlıq, mərhəmət və qayğıkeşlik, insanpərvərlik, təvazökarlıq, qayğıkeşlik və s.

İdman hərəkətləri və fiziki tərbiyə uşaqların zahiri gözəlliyinə və estetik baxışlarına da yaxşı və qüvvətli təsir edir. Uşaqların fiziki inkişafına və sağlamlığının qorunmasına nail olmaq, həmçinin biliklərin aşılanmasına hazırlıq məqsədi ilə bir sıra işlər aparılmalıdır:

- hər bir uşağın sağlamlığı və təhlükəsizliyi üçün əlverişli şərait yaratmaq;
- uşaqların müntəzəm olaraq tibbi müayinəsi ilə məşğul olmaq;
- uşaqların fiziki inkişafını artıran qidalanmasını təmin etmək;
- uşaqların sağlamlığı, fiziki forma və fəal hərəkətlərini artıran xüsusilə oynaması üçün şərait yaratmaq;
- uşaqların fiziki hərəkətlərini məhdudlaşdırmayan fəaliyyətini təmin etmək;
- idman alətlərini bütün uşaqlar üçün əlçatan etmək, nəğməli oyunların, mahnı oxunmasının, rəqs və digər mütəhərrik oyunlardan geniş istifadə etmək:
- səhər gimnastikası ilə müntəzəm məşğul olmaq;
- risk faktorları və uşaqların hüquqlarının pozulması hallarının qarşısını almaq.

***İntellektual inkişaf.*** "İntellektual inkişaf dedikdə, hafizə, qavrayış, təfəkkür və təxəyyül nəzərdə tutulur" [Əsədova İ., 2006]. Məktəbə hazırlıq mərhələsində uşaqların idrak maraqlarının təmin edilməsi, təlimə müsbət motivasiyanın yaradılması vacibdir. Bu, intellektual inkişaf sahəsi üzrə məşğələlər vasitəsi ilə təmin olunur. Məşğələ prosesində uşaqların çoxlu sualları yaranır. Bu suallar tərbiyəçi-müəllimlər tərəfindən onların başa düşəcəyi dildə izah olunmalıdır. Burada əsas məsələ uşağa düzgün istiqamət vermək, onu həvəsləndirmək, tərbiyə etməkdir. Uşaqlarda tərbiyənin bünövrəsi düşünərək öz təfəkkür və əqli qabiliyyətlərinin köməyi ilə ətraf aləmdə baş verən hadisələri qavraya bilmələri ilə qoyulur. Onlar kreativ düşüncənin sayəsində yaradıcı fəaliyyət göstərirlər. Bütün bunlar körpəlik dövründən uşaqların idrakı fəallığının, dərketmə qabiliyyətinin inkişaf etdirilməsini bir tələbata çevirir ki, bu da intellektual inkişafı yaradır. Uşaqların sayma, hesablama bacarıqlarının inkişaf etdirilməsi, böyük, kiçik fiqurların üçbucaq, dördbucaq anlayışlarını bilməsi, müqayisə və təhlil etməsi, qruplaşdırması, ümumiləşdirməsi, sistemləşdirməsi kimi fikri əməliyyatları mənimsəmələri, təlim fəaliyyəti prosesində əşya və hadisələr arasında səbəb və nəticə əlaqələrini təmin etmək bacarıqlarının yaradılması məktəbəhazırlıq mərhələsində ön plana çəkilir.

Uşağın intellektual inkişafı üzrə aparılan işlər məktəbəqədər dövrün bütün mərhələlərində həyata keçirilir. Bu hazırlıq heç də uşaqlara birdən-birə xüsusi bilik və bacarıqlar vermək istiqamətində deyil, ilk növbədə onların əqli qabiliyyətlərinin, düşünmə bacarıqlarının və idrak maraqlarının (müşahidə etmək, təhlil etmək, müqayisə aparmaq, ümumiləşdirmək, əqli nəticəyə gəlmək) inkişafı istiqamətində həyata keçirilir**.** Məktəbə hazırlığın sonunda uşaq bu bacarıqlara sahib olur:

- Əşya və hadisələr haqqında ilkin təsəvvürə malik olduğunu nümayiş etdirir.
- Nitqi dinləyib anlayır, rabitəli danışır və nitq etiketlərindən istifadə edir.
- Sadə riyazi əməliyyatları yerinə yetirir.

Uşaqların məktəbə hazırlanmasında onların intellektual qabiliyyətlərinin inkişaf etdirilməsi üzrə məşğələlər mühüm əhəmiyyətə malikdir. Məktəbəqədər müəssisəyə və ya məktəbəhazırlıq siniflərinə müxtəlif səviyyəli uşaqlar gəldiyindən tərbiyəçi-müəllim onların hər birinin intellektual səviyyəsini öyrənməli və fərdi yanaşma prinsipinə uyğun məşğələlər təşkil etməlidir. Tərbiyəçi, müəllim fəal və interaktiv metodlardan, maraqlı, əyləncəli oyunlardan istifadə edərək uşaqların idrak fəaliyyətini öyrənməli, inkişaf etdirməlidir. Məsələn, maraqlı fakt və hadisələr, insanlar, heyvanlar, təbiət haqqında danışmaq, videoçarxlar, şəkillər, cizgi filmləri, oyuncaqlar nümayiş etdirməklə, didaktik oyunlara cəlb etmək, rəsm çəkmək kimi məşğələlərlə uşaqların diqqət və düşüncələrini aktivləşdirə bilərlər. Uşaqlara ünsiyyət qurmaq, dinləmək mədəniyyəti aşılayan oyunlar, məşğələlər vasitəsi ilə onlara etik davranışlar və nitq mədəniyyəti yaradan "sehirli sözlər" öyrədilməli, böyüklərlə, yaşıdları ilə rəftar mədəniyyəti başa salınmalıdır. Ünsiyyət qurma, özünüqiymətləndirmə, intellektual hazırlıq, obrazlı təfəkkür, təxəyyül, yaradıcılıq, məntiqi təfəkkür kimi idraki proseslərin inkişafı ön plana çəkilməlidir. Uşaqların idraki fəaliyyət vasitələrinə (müqayisə etmə, təhlil və təsnif etmə, ümumiləşdirmə), ana dilinə və nitqin əsas formalarına (dialoq, monoloq), digər səciyyəvi uşaq fəaliyyəti növlərinə diqqət yetirilməlidir. İdrak proseslərinin inkişaf etdirilməsinə xidmət edən məşğələlər uşaqlarda bir sıra bacarıqların aşılanmasını təmin edir:

- obrazlı təfəkkürün, təxəyyülün, yaradıcılığın, məntiqi təfəkkürün inkişafı;
- idraki fəaliyyət vasitələrinə (müqayisə etmə, analiz, klassifikasiya, ümumiləşdirmə), ana dilinə və nitqin əsas formalarına (dialoq, monoloq), digər spesifik uşaq fəaliyyəti növlərinin daxilində təlim elementlərinə (quraşdırma, rəsm, yapma və müxtəlif oyunlara) yiyələnmək;
- prosesləri (obyektləri) müqayisə etmək, ümumiləşdirmək, qruplaşdırmaq, əlamətlərinə görə ayırmaq, nəticə çıxarmağı bacarmaq və s.

***Estetik və yaradıcı inkişaf***. Zövq, bədii yaradıcılıq qabiliyyətləri, ətraf aləmdəki obyektlərin müşahidəsi və təhlil, müzakirə etmək bacarıqlarının təməli məktəbəqədər yaş dövründən qoyulmalı və inkişaf etdirilməlidir. Təsviri fəaliyyət yolu ilə uşaqların estetik və yaradıcı inkişafına nail olunur. Rəsm, musiqi, bəzək əşyaları ilə təşkil olunmuş məşğələlər, həmçinin oyunlar uşaqlarda rəng, forma, melodiya seçimi yaradır. Uşaqlar fiqurlardan yeni birləşmələrin hazırlanması, quraşdırma prosesində müxtəlif modellərin qurulması, musiqidə mahnıların dinlənilməsi, rəqslər, musiqi alətlərində ifaya meyillilik, rəsmdə surətlərin yaradılması, rənglərin seçilməsi kimi əməliyyatları yerinə yetirməklə onların estetik və

yaradıcı inkişafına zəmin yaranır. Bu inkişaf gələcəkdə geyim və çanta, bəzək əşyaları seçmək, otağını səliqəyə salmaq və s. kimi həyati bacarıqlar zamanı önəmli rol oynayır. Estetik tərbiyə uşaqlara təbiətin, ətraf mühitin gözəlliyini görmək bacarığı aşılayır, yaradıcı qabiliyyətlərin formalaşmasına imkan yaradır. Estetik tərbiyə aşılayan məşğələlər bu nəticələrin əldə olunmasına xidmət edir:

- Sadə bədii yaradıcılıq bacarıqları nümayiş etdirir, sadə kompozisiyalar qurur.
- Əmək prosesində istifadə edilən alətləri adlandırır, parça və iynə-sapla sadə bacarıqlar nümayiş etdirir.
- Sadə əmək bacarıqları, fərdi və kollektiv əməyin növləri üzrə müstəqil bacarıqlar nümayiş etdirir.

***Sosial-emosional inkişaf.*** Məktəbəqədər yaşlı uşaqların sosial hazırlığı bir vəzifə kimi təhsil işçilərinin qarşısına qoyulmuşdur. Bəs uşaqların sosial hazırlığı, sosial inkişafı, sosiallaşması nə deməkdir? Uşağın sosial inkişafı və sosial tərbiyəsi onun ətraf aləmi düzgün dərk etməsi, elmi dünyagörüşə malik olması, xalqın adət və ənənələrini bilməsi, mədəni davranış qaydalarına əməl etməsi, insanlarla düzgün ünsiyyət mədəniyyətinə yiyələnməsi, cəmiyyətdə fəal mövqe tutması və vətəndaşlıq keyfiyyətlərinə sahib olması deməkdir. Uşağın sosial tərbiyəsi uşağın onun sosial inkişafının əsasını təşkil edir və məktəbəhazırlıq mərhələsində onların sosial-emosional inkişafı xüsusi əhəmiyyət kəsb edir [Altubayeva Q., 2016]. Sosiallaşmayan uşaq məktəb həyatında "yaşaya" bilməz. "Məktəbə hazırlığın təşkili qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər kabinetinin qərarında deyilir: "Uşağın məktəb təliminə hazırlığı zamanı hər şeydən əvvəl onun sosial hazırlığı nəzərdə tutulmalıdır" ["Məktəbə hazırlığın təşkili qaydaları"., 2010]. Uşaqların emosional əhvallarını əhatəsində olduğu sosial mühit tənzimləyir. Xeyirxahlıq, xoşrəftarlıq, ədəbli davranış, yardımsevərlik, qayğıkeşlik və s. kimi mənəvi keyfiyyətlər formalaşır. Uşaqlar oyun, əmək və əməli fəaliyyətə, kollektivdə davranış, rəftar qaydalarına dair ilkin bacarıqlara yiyələnirlər. Bu dövrdə uşaqların böyüklərlə və yaşıdları ilə ilkin qarşılıqlı fəaliyyətinin müxtəlif formaları yaranır. Ünsiyyət vasitəsilə birgə fəaliyyətin müxtəlif növlərində şəxsiyyətlərarası əlaqələr, böyüklərə hörmət, yaşıdlarına güzəşt, qarşılıqlı təsir və qarşılıqlı anlaşma təmin olunur.

Məktəbəhazırlıq mərhələsinin sonunda uşaqlar:

- ünsiyyəti sosial normalara əsasən tənzimləyir, ilkin ünsiyyət bacarıqlarını nümayiş etdirir, böyüklərin mimika və jestlərinə, intonasiyasına reaksiya verirlər;
- birgə oyunlarda iştirak edir, oyun zamanı emosional reaksiya verir, birgə fəaliyyət bacarıqları nümayiş etdirirlər;
- hörmət (münasibət) və dözüm (tolerantlıq) nümayiş etdirir, ətrafdakılarla

mehriban davranırlar;

- fəaliyyət zamanı güzəştə gedir, bölüşür və digərlərinə kömək edirlər.

Əlavə etmək lazımdır ki, körpəlik dövründə uşaqlar ilk ünsiyyətini böyüklərlə qurur, onlara inanır, öz hərəkət və davranışlarını idarə etməyə başlayır, onlardan nümunə götürür, nitqini düzgün qurur və uyğun, məntiqi cümlələr işlədirlər. Erkən yaş dövrü uşaqların sosial inkişafının formalaşması və ümumi inkişafında mühüm əhəmiyyət kəsb edir.

***Ünsiyyət*** - uşağın sosial keyfiyyətlərinin formalaşması üçün ilkin və başlıca rol oynayır. Əsasən, məktəbəqədər yaş dövründə valideyn ilə uşaq daha çox ünsiyyətdə olur. Məhz bu dövrdə uşaqlar və böyüklər arasında qarşılıqlı münasibətlər, dialoqlar yaranır. Erkən uşaqlıqda uşaqlar əşyaların adlarını bilir, onlardan necə istifadə etmək lazım olduğunu öyrənirlər. Daha sonra böyüklər onlar üçün bir obyekt və subyekt olurlar ki, uşaqlar onların hərəkətlərini izləyir, onları təkrar edir, onlar kimi davranır, sosial tərbiyənin təsiri ilə tədricən formalaşırlar.

***Sosial tərbiyə*** uşağın ətraf aləmi düzgün qavraması, ətrafı düzgün öyrənib və qiymətləndirməsi, başqalarının işinə, maraqlarına diqqət ayırması, onların işləri ilə tanış olması, hər bir peşəyə, insanlara hörmətlə yanaşması, başqalarının kədərinə heyifsilənmək, sevincinə sevinmək kimi keyfiyyətlərə yiyələnməsi deməkdir. Sosial tərbiyə uşaqlarda yüksək əxlaqi təsəvvürlərin və vətəndaşlıq hisslərinin inkişaf etdirilməsi, onların vətənpərvərlik, humanistlik, tolerantlıq kimi keyfiyyətlərə yiyələnməsi deməkdir.

Sosial tərbiyə, həmçinin uşaqlarda etdiyi səhvinə görə günahkarlıq hissinin formalaşması, öz nöqsanlarını, xoşagəlməz davranışını bilməsidir. Məsələn, oğlan uşağı öz yaşıdının əlindən oyuncaq maşınını kobudcasına aldığına görə narahat və peşman olmalıdır, yaxud qız uşaqları oyuncaq gəlinciklərini zədələməməlidirlər. Onlar anlamalıdırlar ki, oyuncaqları korlamaq olmaz. Hər bir əşyanın, istər geyim olsun, istərsə də oyuncaqların, digər əşyaların dəyərini bilməli, onlarla rəftar qaydalarını öyrənməlidirlər.

Bütün bunlara nail olmaq üçün hazırda fəaliyyət göstərən dövlət və özəl məktəbəqədər təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarında 5 yaşlı uşaqlarla ana dili və bədii ədəbiyyat, savad təliminə hazırlıq, ətraf aləmlə tanışlıq, dil bilgisi (Azərbaycan, rus, ingilis), sadə riyazi təsəvvürlərin inkişafı üzrə həftə ərzində 12 məşğələ təşkil olunur.

Uşağın məktəbə gəlməsi ilə onun həyatında mühüm dövr başlanır. O, yeni uşaq kollektivinə düşür, sabit cədvəl üzrə təlim fəaliyyətinə qoşulur, uşaq bağçasından fərqli sosial münasibətlər şəraitinə qədəm qoyur. Ona görə də ibtidai sinif müəllimləri uşaqlar məktəbə gələnədək məktəbə hazırlıq qruplarında olmalı, onların təlim – tərbiyə işi ilə yaxından maraqlanmalı, uşaqlarla fərdi söhbətlər aparmalıdırlar.

## Nəticə / Conclusion

Yekun olaraq deyə bilərik ki, məktəbə hazırlıq məqsədi ilə əsasən dörd: fiziki, şəxsiyyətyönümlü, intellektual, sosial hazırlıq istiqamətləri üzrə məşğələlər təşkil olunur. Uşaqların intellektual, psixoloji, pedaqoji hazırlığı, onların mənəvi, əxlaqi mədəniyyətə, mədəni davranış qaydalarına, ünsiyyət mədəniyyətinə yiyələnməsi, ailədə, ictimai yerlərdə davranış qaydalarına əməl etməsi onların fiziki, intellektual, estetik, sosial-emosional tərbiyəsinin əsasını təşkil edir. Bu keyfiyyətlərə yiyələnmək uşağın təlimə marağı, məktəbə, o cümlədən kollektivə adaptasiyası, sosiallaşması, ictimailəşməsi məktəbə hazırlıq mərhələsində mühüm əhəmiyyət kəsb edir ki, bütün bunlar uşaqların sosial-psixoloji və pedaqoji hazırlığını əhatə edir. Məktəbəqədər yaşlı uşaqların məktəbə hazırlanması çoxyönlü mürəkkəb pedaqoji, psixoloji, sosioloji prosesdir. Bütün bu istiqamətlərin uğurla yerinə yetirilməsi məktəbdə təlimin, təhsilin keyfiyyətinə əsaslı təsir göstərəcək və bu günkü məktəbə hazırlaşanların təlim fəaliyyəti uğurlu olacaqdır. Tədqiqat işində bu kimi məsələlərin araşdırılması məktəbəqədər yaşlı uşaqların məktəbə hazırlığının nə qədər aktual bir problem olduğunu meydana qoyur və bu problem ətrafında daha çox araşdırmaların aparılmasına, eyni zamanda dünya təcrübəsinin öyrənilməsinin vacibliyinə diqqət yönəldir.

**Məqalənin aktuallığı.** Müasir dövrümüzdə uşaqların məktəbəhazırlıq qruplarına cəlb olunması, burada təlim-tərbiyə prosesinin təşkili, müəllimlərin pedaqoji prosesə yanaşması məsələləri aktuallıq kəsb edir. Çünki bu mərhələ təhsilin keyfiyyətinin, səmərəliliyinin artırılması baxımından müstəsna əhəmiyyətə malikdir. Bu baxımdan, məqalədə qaldırılan məsələlər və irəli sürülən mütəxəssis münasibəti elmi-pedaqoji və təhsil ictimaiyyəti üçün aktualdır.

**Məqalənin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi məktəbəqədər yaşlı uşaqların məktəbə hazırlanması prosesinin fiziki, intellektual, estetik və yaradıcı, sosial-emisional inkişaf sahələri üzrə məşğələlərin təşkili ilə hansı müsbət nəticələrin əldə olunacağının proqnozunun verilməsidir.

**Məqalənin praktik əhəmiyyət.** Məqalədə verilən metodik təklif və tövsiyələrdən məktəbəqədər təhsil müəssisəsi işçiləri, tərbiyəçi-müəllimlər, pedaqoji sahə üzrə təhsil alan tələbələr, tədqiqatçılar, həmçinin məktəbəqədər yaşlı övladları olan valideynlər faydalana bilərlər.

## İstifadə olunmuş ədəbiyyat / References

1. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" (2013). Xalq qəzeti, 26 oktyabr.
2. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu) (3-6 yaş). (2012). 10 iyul.
3. "Məktəbə hazırlığın təşkili qaydalari". (2010). https://frameworks.e-qanun.az/12/f_12492.html
4. "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. (2017). Bakı şəhəri, 16 iyun.
5. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. (2009). Bakı, Hüquq ədəbiyyatı, 80 s.
6. "Uşaqların məktəbəhazırlığının təşkili məsələləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı. (2016). Bakı şəhəri, 11 iyul, № 271.
7. Məktəbəqədər təhsilin proqramı (kurikulum). (2022). Bakı, Azərbaycan Respublikasının Təhsil İnstitutu, s.54. https://edu.gov.az/uploads/emre-elave.
8. Cəfərova L. (2022). Azərbaycanda müasir məktəbəqədər təhsil sisteminin təhlili. № 2, s. 9-23.
9. Əsədova İ. (2006). Şagirdlərin intellekt tərbiyəsi təhsilin əsasıdır. "Dil və ədəbiyyat" Beynəlxalq elmi-nəzəri jurnal. Bakı, № 5, s. 141-142.
10. Altubayeva G. (2016). Podgotovka detey v shkole v usloviyakh doshkolnogo uchrezhdeniya. Yevraziyskiy Nauchniy Zhurnal № 6 (iyun). https://journalpro.ru/articles/podgotovka-detey-v-shkole.